**“Azərbaycan Respublikasının Energetika Nazirliyi adından inzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”nın təsdiq edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI ENERGETİKA NAZİRİNİN ƏMRİ

“Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 15 fevral 2016-cı il tarixli 795 nömrəli Fərmanının və “İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”nın təsdiq edilməsi haqqında 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanının 5-ci hissəsinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 aprel tarixli 149 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Energetika Nazirliyi haqqında Əsasnamə”nin 5.5.4-cü yarımbəndini rəhbər tutaraq

**əmr edirəm:**

1. “Azərbaycan Respublikasının Energetika Nazirliyi adından inzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı” təsdiq edilsin (əlavə olunur).

*1-1. “Energetika Nazirliyinin səlahiyyətli şəxsləri tərəfindən baxılmış inzibati xəta haqqında işlər barədə Hesabat” forması təsdiq edilsin (əlavə olunur).*

2. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin:

2.1. 278-ci və 281-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə baxılmasını *Elektrik və istilik enerjisi* şöbəsi və *Enerji Məsələlərini Tənzimləmə Agentliyi*;

2.2. 279-cu, 280-ci və 282-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə *fəaliyyət istiqamətlərinə uyğun olaraq* baxılmasını Neft-qaz şöbəsi, *Elektrik və istilik enerjisi şöbəsi, Enerji səmərəliliyi şöbəsi* və *Enerji Məsələlərini Tənzimləmə Agentliyi*;

2.3. 542-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə baxılmasını Neft-qaz şöbəsi və *Enerji Məsələlərini Tənzimləmə Agentliyi*;

3. Neft-qaz şöbəsi, *Elektrik və istilik enerjisi* şöbəsi*, İqtisadiyyat şöbəsi və Enerji Məsələlərini Tənzimləmə Agentliyinə* tapşırılsın:

3.1. inzibati xətalar haqqında işlərə baxılarkən Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin, o cümlədən 18-ci və 54-cü maddələrinin tələbləri nəzərə alınsın;

3.2. baxılmış inzibati xətalar haqqında işlərin nəticələri haqqında rüblük statistik hesabatları növbəti rübün birinci ayının 5-dək *bu Əmrin 1-1-ci hissəsi ilə təsdiq edilmiş “Energetika Nazirliyinin səlahiyyətli şəxsləri tərəfindən baxılmış inzibati xəta haqqında işlər barədə Hesabat” formasına uyğun olaraq Energetika nazirinə* təqdim edilsin.

4. “Azərbaycan Respublikasının Energetika Nazirliyi adından inzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”nın təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Energetika Nazirliyinin 2017-ci il 15 mart tarixli 8 nömrəli əmri ləğv edilsin.

5. Elektron idarəetmə sektoru bu əmrin və “Azərbaycan Respublikasının Energetika Nazirliyi adından inzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”nın nazirliyin internet səhifəsində yerləşdirilməsini təmin etsin.

6. Ümumi şöbə bu əmrin surətinin nazirliyin aparatının aidiyyəti struktur bölmələrinə və Enerji Məsələlərini Tənzimləmə Agentliyinə çatdırılmasını təmin etsin.

7. Əmrin icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**PƏRVİZ ŞAHBAZOV**
**Azərbaycan Respublikasının energetika naziri**

2 dekabr 2019-cu il
№ F-108

Azərbaycan Respublikası Energetika Nazirliyinin
2019-cu il 2 dekabr tarixli F-108 nömrəli Əmri ilə
təsdiq edilmişdir

## Azərbaycan Respublikasının Energetika Nazirliyi adından inzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin SİYAHISI

*1.* Nazir;
*2.* Nazir müavinləri;
*3.* Aparat rəhbəri;
*4.* Aparat rəhbərinin müavinləri;
*5.* Neft-qaz şöbəsinin müdiri, müdir müavinləri, sektor müdiri, baş məsləhətçisi, böyük məsləhətçisi;
*6.* *Elektrik və istilik enerjisi* şöbəsinin müdiri, müdir *müavini*, sektor müdiri, baş məsləhətçisi, böyük məsləhətçisi;
*6-1. Enerji səmərəliliyi şöbəsinin müdiri, müdir müavini, sektor müdiri, baş məsləhətçisi, böyük məsləhətçisi;*
*7.* İqtisadiyyat şöbəsinin müdiri, müdir müavini, baş məsləhətçisi, böyük məsləhətçisi;
*8. Enerji Məsələlərini Tənzimləmə Agentliyinin İdarə Heyətinin sədri və sədr müavinləri;*
*9. Enerji Məsələlərini Tənzimləmə Agentliyinin filiallarının rəisləri və filial rəislərinin müavinləri.*

Azərbaycan Respublikası Energetika Nazirliyinin
2019-cu il 2 dekabr tarixli F-108 nömrəli Əmri ilə
təsdiq edilmişdir

**Energetika Nazirliyinin səlahiyyətli şəxsləri tərəfindən baxılmış inzibati xəta haqqında işlər barədə Hesabat**

| Sıra № | İnzibati xətanın növü (İXM maddənin nömrəsi) | Baxılmış işlər (ədəd) | O cümlədən: | | | |
|---|---|---|---|---|---|---|
| | | | Qəbul edilmiş qərarlar (ədəd) | | Xitam verilən (ədəd) | Geri qaytarılan (ədəd) |
| | | | Cəmi | Onlardan: “ASAN ödəniş” sistemində yerləşdirilmiş | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| Cəmi: | | | | | | |

**Rəhbər** ______________________ ____________________________
(imza) (soyadı və adı)

**İcraçı** ______________________ ____________________________
(imza) (soyadı və adı)

**Tərtib olunma tarixi** ____________________